AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri, i.ü.f.d., dos. E. Q. Məmmədov**
**(Protokol № )**

# "SOSİAL SİYASƏT" FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

**(S İ L L A B U S)**

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin kodu:** | **00824** |
| **Fənnin növü:** | **Əsas** |
| **Tədris ili:** | **---** |
| **Fənnin tədris semestri:** | **Payız** |
| **Fənnin tədris forması:** | **Əyani** |
| **Tədris dili:** | **Azərbaycan** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **----** |
| **Kafedra:** | **"İctimai idarəetmə və sosial innovasiyalar"** |
| **Tədris yükü:** | **----** |

**Kredit sayı:** **5**

## MÜƏLLİM HAQQINDA MƏLUMAT

**Fənni tədris edən müəllim:** **B/Müəl. Köçərli Yalçın Ə.**

**E-mail ünvan:** **yalchin_kocharli@unec.edu.az**

**İş telefonu:** **012 564 37 05**

**Tələbələr üçün qəbul vaxtları:** **----**

## FƏNNİN TƏSVİRİ

Hər bir dövlətin daxili siyasətinin prioritet istiqamətlərindən biri də onun sosial siyasətidir. Sosial siyasət əhalinin ayrı-ayrı qruplarının həyat keyfiyyətinin yüksəldilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn tədbirlər sistemidir. Sosial siyasət dövlətin daxili siyasətinin tərkib hissəsi olub, onun həyata keçirdiyi sosial proqramlarda, əhalinin əsas sosial qruplarının marağını əsas götürərək, cəmiyyətdəki münasibətlərin tənzimlənməsində təzahür edir. Sosial siyasətin mahiyyətinin dərk edilməsi sosial vəziyyətin parametrlərinin müəyyən edilməsi zərurətini meydana çıxarır. Sosial vəziyyətin parametrlərinə əhalinin həyat səviyyəsi, maddi rifah, həyat tərzi və həyat keyfiyyəti göstəricilərini aid etmək olar. Əhalinin həyat tərzi və həyat keyfiyyəti göstəriciləri yalnız kəmiyyət xarakteristikaları olan göstəricilərlə məhdudlaşmır. Əhalinin həyat keyfiyyəti sosial xidmətlərlə təmin edilməsi, əhalinin təhsil səviyyəsi, səhiyyə xidmətləri ilə əhatə olunması dərəcəsi ilə xarakterizə olunur.

## FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Fənnin tədrisində əsas **məqsəd** gəlirlərin bölgüsündəki bərabərsizliyin azaldılması, bazar iqtisadiyyatında gəlirlər və mülkiyyət sahəsində fərqlərin zəiflədilməsi, iqtisadi fəaliyyətin iştirakçıları arasında ziddiyyətlərin yumşaldılması və cəmiyyətdəki sosial ixtilafların aradan qaldırılmasına yönəldilmiş nəzəriyyələrin tələbələrə çatdırılmasıdır. Fənnin tədrisinin əsas **vəzifələri** dövlət tərəfindən tətbiq olunan tədbirlər kompleksinin xüsusiyyəti kimi əhalinin həyat və əmək fəaliyyətinin ağırlaşmasının, işsizliyin və yoxsulluğun qarşısının alınması ilə bağlı tədbirlərlə tələbələri tanış etmək, sosial yardım, sosial müdafiə və sosial sığorta sisteminin inkişaf xüsusiyyətləri ilə tələbələri yaxından tanış etməkdir.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI

Bu fənn iqtisadiyyatın inkişafının müasir mərhələsində sosial amillərin rolu və onun qiymətləndirilməsi, o cümlədən sosial siyasətin formalaşmasına təsir edən amilləri, məşğulluğun təmin edilməsi və işsizliyə qarşı mübarizədə dövlətin sosial

siyasətini, sosial siyasət baxımından gəlirlərin bölgüsü və onu təyin edən amilləri, yoxsulluqla mübarizə tədbirlərini, sosial yardım və müdafiə sistemini əhatə edir.

## ÖYRƏNMƏNİN NƏTİCƏLƏRİ

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

***Tələbələr bilməlidirlər:***

- Sosial siyasətin yaranma səbəblərini;
- Sosial rifah və onun artırılması probleminin spesifik cəhətlərini;
- Azərbaycan Respublikasında müxtəlif səviyyəli büdcələrin və dövlət sosial büdcədənkənar fondların hesabına maliyyələşdirilən sosial ödənişlər, o cümlədən təhsil, səhiyyə, mədəniyyət və incəsənət sferasında sosial xidmətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrinin əsas xüsusiyyətlərini;
- İnsan resurslarının idarə edilməsinin məqsədi və hədəflərini;
- Məşğulluq və işsizlik problemlərinə strateji planlaşma və idarəetmə sisteminin meyarı olaraq yanaşmaları;
- Həyat səviyyəsi, həyat tərzi və yoxsulluq problemlərinə geniş yanaşmaları;
- Gəlir bərabərsizliyinin iqtisadi artıma təsir kanallarını;
- Sosial müdafiə sistemi anlayışı haqqında;
- Sosial sığorta hadisəsi zamanı tətbiq edilən sığorta ödəmələri haqqında;
- Sosial təcrid olunmanın əsas səbəbləri və formalarını;
- Beynəlxalq sosial siyasətin məqsədi və yaranma səbəblərini;

***Tələbələr bacarmalıdırlar:***

- Sosial siyasət və xüsusi siyasət tələb edən seqmentlərlə iş sahəsində bilik və bacarıqların effektiv idarə edilməsi mexanizmlərinin düzgün istifadəsini;
- Vətəndaşların rihafının yüksəldilməsi üçün dövlət tərəfindən tətbiq olunan metodları gələcəkdə fəaliyyət göstərdikləri sferalarda aşılamağı;
- İşçilərdən və işə götürənlərdən alinan siğorta haqları haqqında nəzəri biliklərə sahib olmaqla, əmək haqqından tutulmaların sərbəst şəkildə hesablamasını həyata keçirməyi;

- Azərbaycanda məşğulluğun təmin edilməsi və işsizliyə qarşı mübarizədə dövlətin sosial tədbirlər sistemini dərindən təhlil etməklə, gəlirlərin bölgüsü və onu təyin edən amillərini əsaslandırmağı;
- Gəlirindən asılı olmayaraq əhalinin bütün təbəqələrini sosial təhlükələrin verdiyi zərərlərdən qorumaq və vətəndaşların hüquqlarını müdafiə etmək üçün dövlət tərəfindən atılan addımları təhlil etməyi;
- Sosial müdafiə və sosial sığorta sistemində qanunvericilik aktları, fəaliyyət mexanizmləri və prinsipləri təhlil etməyi;
- Beynəlxalq sosial siyasətin formalaşmasında rol oynayan universal təşkilatların əhəmiyyətini müəyyənləşdirməyi.

## PREREKVİZİTLƏR:

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

**MÖVZU 1.** Sosial siyasət kursunun tətbiqi, məqsədi, metodu və ümumi çərçivəsi.

**MÖVZU 2.** Sosial siyasətin tarixi inkişaf mərhələləri.

**MÖVZU 3.** Dünya ölkələrində sosial siyasət modelləri.

**MÖVZU 4.** Sosial siyasətin hədəfləri və bu hədəflərə çatmaq üçün istifadə olunan vasitələr.

**MÖVZU 5.** Sosial siyasətin maliyyə mexanizmləri.

**MÖVZU 6.** Sosial siyasət və insan resurslarının idarə edilməsi.

**MÖVZU 7.** Məşğulluğun təmin edilməsi və işsizliyə qarşı mübarizədə dövlətin sosial siyasəti.

**MÖVZU 8.** Sosial siyasətdə yoxsulluqla mübarizə tədbirləri.

**MÖVZU 9.** Sosial siyasət baxımından gəlirlərin bölgüsü və onu təyin edən amillər.

**MÖVZU 10.** Sosial müdafiə sistemi.

**MÖVZU 11.** Sosial sığorta.

**MÖVZU 12.** Sosial siyasətdə sosial təcrid-ayrıseçkilik.

**MÖVZU 13.** Xüsusi qayğıqa ehtiyacı olan qruplarla iş (Dezavantajlı qruplar).

**MÖVZU 14.** Sosial siyasətdə sosial işin yeri və əhəmiyyəti.

**MÖVZU 15.** Beynəlxalq sosial siyasət.

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

## ƏSAS DƏRSLİK VƏ ƏDƏBİYYAT

**"Sosial siyasət" fənninin tədrisində istifadə ediləcək ədəbiyyat siyahısı.**

| Fənnin tədrisində istifadə olunan əsas dərslik | Fənnin tədrisində istifadə olunan əlavə dərslik | Fənnin tədrisində istifadə olunan internet resursları |
|---|---|---|
| 1.Prof.Dr. Eyüp Bedir, Arş.Gör.Dr. Okan Güray Bülbül, Doç.Dr. Mehmet Merve Özaydın, Arş.Gör.Dr. Işıl Kurnaz, Dr.Öğr.Üyesi Volkan Işık, Doç.Dr. Banu Metin, Prof.Dr. Yusuf Alper, Prof.Dr. Aysen Tokol "Sosyal politika" (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018;<br>2.Prof. Dr. Ömer Zühtü Altan "Sosyal politika" (Ders notu), Anadolu Üniversiteti, Açıköğretim fakültesi, Eskişehir, Haziran 2007;<br>3.Adem Öcal, Hamza Yakar, Filiz Zayimoğlu Öztürk, Talip Öztürk, Ahmet Özalp, Kurşat Tarım Tika, Hayati Adalar, Eyüp Yılmaz, Pecep Polat, Erdal Yıldırım, Gökçe Kılıçoğlu "Dezavantajli gruplar ve sosyal bilgiler", Pegem Akademi, Aralık 2015, Ankara;<br>4.Doç. Dr. Cihan Yüksel " Gelir dağılımı ve yoksulluk" Özet ders notları, Mersin Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Çalışma Ekonomisi ve Endüstri İlişkileri Bölümü Son Güncelleme, 2020;<br>5.Prof.Dr. Serap Benligiray, Prof.Dr. Avni Barış Baraz, Prof.Dr. Mesut Kurulgan, Dr.Öğr.Üyesi Asuman Nurhan Şakar, Prof.Dr. Deniz Kağnıcıoğlu, Prof.Dr. Deniz Taşcı, Dr.Öğr.Üyesi Güzin Kıyık Kıcır, Dr.Öğr.Üyesi Bahar Suvacı "İnsan kaynakları yönetimi" (ders notu), Anadolu Üniversitesi, Eskişehir, Aralık 2020 | 1.Prof. Dr. Halis Yunus Ersöz "Sosyal politika" Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi;<br>2.Doç. Dr. Faruk Taşcı "Yoksulluk ve sosyal hizmet", İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programı;<br>3.Doç.Dr. Seda Tekeli, Prof.Dr. Şenay Gökbayrak, Prof.Dr. Mesut Gülmez, Prof.Dr. Seyhan Erdoğdu "Uluslararası sosyal politika" Anadolu Üniversitesi, Açıköğretim Fakültesi | 1. http://e-qanun.az/<br>2. http://sosial.gov.az/ |

## MÖVZULARIN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat sıyahısı |
|---|---|---|---|
| **1.** | **Sosial siyasət kursunun tətbiqi, məqsədi, metodu və ümumi çərçivəsi** | Sosial siyasət anlayışı; Sosial siyasətin məqsədi və vəzifələri; Azərbaycan dövlətinin sosial siyasət strategiyası. | 1. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika" Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi,<br>2. Prof.Dr. Eyüp BEDİR, Arş.Gör.Dr. Okan Güray BÜLBÜL, Doç.Dr. Mehmet Merve Özaydın ve b. "SOSYAL POLİTİKA" (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018<br>3. Prof. Dr. Ömer Zühtü Altan "Sosyal Politika" (Ders notu), Anadolu Üniversiteti, Açıköğretim fakültesi, Eskişehir, Haziran 2007 |
| **2.** | **Sosial siyasətin tarixi inkişaf mərhələləri** | Sosial siyasətin yaranmasına səbəb olan Sənaye İnqilabı; Sənaye inqilabının inkişaf mərhələləri; Dördüncü və beşinci Sənaye İnqilabının inkişaf mərhələləri. | 1. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika" Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi,<br>2. Prof.Dr. Eyüp BEDİR, Arş.Gör.Dr. Okan Güray BÜLBÜL, Doç.Dr. Mehmet Merve Özaydın ve b. "SOSYAL POLİTİKA" (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018<br>3.https://furniturkonline.com/2018/08/06/ready-for-industry-5.0/ |
| **3.** | **Dünya ölkələrində sosial siyasət modelləri** | Skandinaviya modeli / Skandinaviya ölkələri; Beveric modeli/ Anglo-Sakson ölkələri; Bısmark modeli/ Kontinental Avropa Ölkələri; Həmrəylik Modeli (Yardımlaşma Modeli/ Ailə Yönümlü Model) / Cənubi Avropa Ölkələri | 1. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika" Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi<br>2. Doç.Dr. Eda Purutçuoğlu, Uzman Shu Ecren Aydin "Dünyada Sosyal Hizmet Uygulamaları" Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi Səh: 114-124<br>3. Prof.Dr. Eyüp BEDİR, Arş.Gör.Dr. Okan Güray BÜLBÜL, Doç.Dr. Mehmet Merve Özaydın ve b. "SOSYAL POLİTİKA" (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018<br>4.https://podarilove.ru/az/osnovnye-modeli-socialnogo-gosudarstva-liberalnaya-model/ |
| **4.** | **Sosial siyasətin** | Sosial siyasətin hədəfləri; | 1. Prof. Dr. Halis Yunus Ersöz |

| | | | |
|---|---|---|---|
| | **hədəfləri və bu hədəflərə çatmaq üçün istifadə olunan vasitələr** | Sosial siyasətin vacib hədəfi kimi sosial rifah; Milli və beynəlxalq səviyyələrdə istifadə olunan vasitələr. | "Sosyal Politika" Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi. Səh: 14-17.<br>2. Prof.Dr. Eyüp BEDİR, Arş.Gör.Dr. Okan Güray BÜLBÜL, Doç.Dr. Mehmet Merve Özaydın ve b. "SOSYAL POLİTİKA" (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018, Səh: 11.<br>3. Prof. Dr. Ömer Zühtü Altan "Sosyal Politika" (Ders Notu), Anadolu Üniversiteti, Açıköğretim Fakültesi, Eskişehir,2007, səh: 26. |
| **5.** | **Sosial siyasətin maliyyə mexanizmləri** | Sosial siyasətin əsas maliyyələşmə mənbələri; Dövlət büdcəsi sosial siyasətin əsas maliyyə mənbəyi kimi; Büdcədənkənar fondların mahiyyəti və zəruriliyi; İşçilərdən və işə götürənlərdən alınan sığorta haqları | 1. Büdcə Sistemi Haqqında Azərbaycan Respublikasının Qanunu<br>2. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika" Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi,<br>3. Bəyalı Ataşov, Nurpaşa Novruzov, Elşən İbrahimov "Maliyyə Nəzəriyyəsi" (Ali Məktəblər Üçün Dərslik), Bakı-2014. Səh: 154-156, 133-312<br>4. Prof.Dr. Eyüp BEDİR, Arş.Gör.Dr. Okan Güray BÜLBÜL, Doç.Dr. Mehmet Merve Özaydın ve b. "SOSYAL POLİTİKA" (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018, Səh: 11-12 |
| **6.** | **Sosial siyasət və insan resurslarının idarə edilməsi** | Əmək ehtiyatları, mahiyyəti, nəzəri aspektləri; İnsan resurslarının idarə edilməsi ilə sosial siyasət arasında əlaqə; İnsan kapitalı və onun rolunun gücləndirilməsi şərtləri | 1. Prof.Dr. Serap Benligiray Prof.Dr. Avni Barış Baraz ve b."İnsan Kaynakları Yönetimi" (Ders Notu), Anadolu Üniversitesi, Eskişehir, Aralık 2020<br>2.Prof. Dr. Ahmet Cevat Acar "İnsan Kaynakları Yönetimi" (Ders Notu) İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, İşletme Lisans Programı<br>3.Prof.T.Ə.Quliyev "İnsan Resurslarının İdarə Edilməsi" Bakı-2013, Səh.:86-142, 250-295<br>4. Prof.Dr. Eyüp Bedir, Arş.Gör.Dr. Okan Güray Bülbül, Doç.Dr. Mehmet Merve Özaydın ve b. "SOSYAL POLİTİKA" (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018,Səh 33,34 |
| **7.** | **Məşğulluğun təmin edilməsi və işsizliyə qarşı mübarizədə dövlətin sosial** | Konseptual çərçivədə məşğulluq və işsizlik; İşsizliyi yaradan səbəblər və işsizliyin strukturu; | 1.Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş Dövlət Məşğulluq |

| | | | |
|---|---|---|---|
| | **siyasəti** | Məşğulluğun təmin edilməsinin tənzimlənməsi metodları. | Agentliyinin Nizamnaməsi<br>2. Prof.Dr. Eyüp BEDİR, Arş.Gör.Dr. Okan Güray BÜLBÜL, Doç.Dr. Mehmet Merve Özaydın ve b. “SOSYAL POLİTİKA” (Ders notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018,Səh: 65-74<br>3.Prof. Dr. Ayhan Gençler, Prof. Dr. Ayhan Uçak ve b. “Çalışma Ekonomisi”, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, İktisat Lisans Proqramı,Səh:236-267<br>4.Prof. Dr. Halis Yunus Ersöz “Sosyal Politika” Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, Səh: 265-283 |
| **8.** | **Sosial siyasətdə yoxsulluqla mübarizə tədbirləri** | Əhalinin həyat səviyyəsi və yoxsulluq; Yoxsulluq probleminin yaranma səbəbləri; Yoxsul təbəqənin vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş davamlı iqtisadi inkişaf. | 1. Prof. Dr. Halis Yunus Ersöz “Sosyal politika” Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, səh: 249-252<br>2. Doç. Dr. Cihan Yüksel “ Gelir Dağılımı Ve Yoksulluk” Özet Ders Notları, Mersin Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Çalışma Ekonomisi ve Endüstri İlişkileri Bölümü Son Güncelleme, 2020 Səh:127-136.<br>3.Əlirzayev Ə.Q. “Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi” (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı , 2010. |
| **9.** | **Sosial siyasət baxımından gəlirlərin bölgüsü və onu təyin edən amillər** | Əhalinin gəlirləri və formalaşma mənbələri; Əhalinin gəlirlərinin tənzimlənməsi formaları; Əhali gəlirlərinin bölgüsündə bərabərsizlik. Gəlir bərabərsizliyinin iqtisadi artıma təsir kanalları. | 1. Prof. Dr. Halis Yunus Ersöz “Sosyal Politika” Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi,<br>2. Ə.Q.Əlirzayev “Sosial-Mədəni Sahələrin İqtisadiyyatı: İnkişaf Və Tənzimlənmə”(Dərs Vəsaiti), Bakı-2016,Səh.: 190-198<br>3. Prof. Dr. Ömer Zühtü Altan “Sosyal Politika” (Ders Notu), Anadolu Üniversiteti, Açıköğretim Fakültesi, Eskişehir, Haziran<br>4. G.Tahirova R.Rəhmanov “İqtisadi artımla imkanlar bərabərsizliyi arasında əlaqə və onun istitusional aspektləri”, Azərbaycan Respublikasının Mərkəzi Bankı, İşçi Məqalələri Silsiləsi № 04/2015. |
| **10.** | **Sosial müdafiə sistemi** | Sosial müdafiə sistemi anlayışı; Sosial müdafiə | 1. Ə.Q.Əlirzayev “Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və |

| | | | |
|---|---|---|---|
| | | modelləri; Sosial müdafiənin əsas istiqamətləri | tənzimlənmə"(Dərs vəsaiti),Bakı-2016, səh.:96-109,154-162, 190-198<br>2. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika" Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, Səh:11-12, 157-159<br>3. "Azərbaycanda Sosial Müdafiə Sistemi: Qiymətləndirmə Və Təkmilləşdirilməsi İstiqamətləri" Cesd Tədqiqat Qrupu, Bakı-2016, Səh:9-15<br>4. https://e-sosial.az/ |
| **11.** | **Sosial sığorta** | Sosial sığorta sisteminin mahiyyəti və əsas prinsipləri; Sosial sığortanın formaları; Azərbaycanda işsizlikdən sığorta sistemində dövlət siyasətinin əsas istiqamətləri; Azərbaycanda pensiya təminatı sisteminin perspektiv inkişafı; Azərbaycanda icabari tibbi sığorta sistemi sosial siyasətin yeni mexanizmi kimi | 1."Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu<br>2. Ə.Q.Əlirzayev "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə"(Dərs vəsaiti), Bakı-2016, səh:120-127, 190-198.<br>3. B.X.Ataşov, Ə.Ə.Ələkbərov, N.N.Xudiyev "Sığorta işi" (Ali məktəblər üçün dərslik), Bakı-2018, səh.:247-268<br>4. Prof. Dr. Eyüp Bedir, Arş.Gör.Dr. Okan Güray Bülbül ve b. "Sosyal Politika" (Ders Notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018, Səh: 130-142 |
| **12.** | **Sosial siyasətdə sosial təcrid-ayrıseçkilik** | Sosial təcrid anlayışı və onun tarixi inkişafı; Sosial təcrid olunmanın səbəbləri və formaları; Ayrıseçkilik anlayışı, növləri və iş yerində ayrıseçkilik; Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası | 1. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika" Ders Notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, Səh: 252<br>2. Prof.Dr. Eyüp Bedir, Arş.Gör.Dr. Okan Güray Bülbül ve b."Sosyal Politika" (Ders Notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018, Səh 151-166<br>3. Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası və istiqamətləndirmə mexanizmləri üzrə Vəsaiti özündə əks etdirən Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi üzrə Bələdçinin yenilənmiş variantı, Beynəlxalq Miqrasiya Təşkilatı, Bakı 2013-cü il, səh:16-25.<br>4. Serhat Özgökçeler " Sosyal Dişlanma Sorunsali Ve Engellilerin Sosyal Politikasi Bağlaminda Değerlendirilmesi" [ yüksek lisans tezi ], T.C. Uludağ Üniversitesi, Sosyal Bilimler Enstitüsü Çalışma |

| | | | |
|---|---|---|---|
| | | | Ekonomisi Ve Endüstri İlişkileri, Anabilim Dalı, Çalışma Ekonomisi Bilim Dalı, Bursa 2006, Səh: 4-37, 68-160 |
| **13.** | **Xüsusi qayğıqa ehtiyacı olan qruplarla iş (Dezavantajlı qruplar)** | Qadınların iş həyatına girişi və onların müdafiəsinə istiqamətlənmiş siyasət; Uşaqların və gənclərin müdafiəsi düşüncəsi qarşısında duran səbəblər; Yaşlıların, əlillərin və cəzaçəkmə müəssisələrindən çıxmış keçmiş məhkumların müdafiəsinə istiqamətlənmiş sosial siyasətin zəruri səbəbləri. | 1. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika" Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, səh: 290-310<br>2. Prof.Dr. Eyüp Bedir, Arş.Gör.Dr. Okan Güray Bülbül ve b. "Sosyal Politika" (Ders Notu), Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018, səh 174-192<br>3. Adem Öcal, Hamza Yakar, Filiz Zayimoğlu Öztürk, Talip Öztürk, Ahmet Özalp, Kurşat Tarım Tika, Hayati Adalar, Eyüp Yılmaz, Pecep Polat, Erdal Yıldırım, Gökçe Kılıçoğlu "Dezavantajli gruplar ve sosyal bilgiler", Pegem Akademi, Aralık 2015, Ankara, səh: 242-267<br>4. Prof. Dr. Ömer Zühtü Altan "Sosyal Politika" (Ders Notu), Anadolu Üniversiteti, Açıköğretim Fakültesi, Eskişehir, Haziran 2007, səh: 215-275 |
| **14.** | **Sosial siyasətdə sosial işin yeri və əhəmiyyəti** | Sosial işin konseptual əsasları; Sosial iş disiplinində vəkillik rolu; Qeyri Hökumət Təşkilatlarının vəkillik rolu. | 1. İstanbul Sabahattin Zaim Üniversitesi, Yrd. Doç. Dr. Mehmet Birinci, Arş. Gör. Fatih Altun ve Arş. Gör. Kaan Sevim "Sosyal çalışma ve yönetim arasındaki ilişkinin değerlendirilmesi", səh: 211-213<br>2. Mehmet Zafer Danış "Sosyal hizmet mesleği ve disiplininde sosyal politikanin yeri ve önemi" Cilt 18, Sayı 2 Ekim 2007,səh:52-63<br>3. Seda Yavaşca "Sosyal Hizmetin Savunuculuk Rolü Bağlamında Sivil Toplum Örgütleri" / Toplumsal Politika Dergisi / Turkish Journal of Social Policy. Yıl: 2021, Cilt: 2, Sayı: 1, ss. 1-10. https://dergipark.org.tr/tr/pub/tpd<br>4.Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika", İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi'nde okutulmak için hazırlanmış ders notu, İstanbul, Səh: 7-14<br>5. Davis, V. L. ve Hagen J. L. (1992) "The Problem of Wife Abuse: The Interrelatinship of Social Policy and Social Work Practice." Social Work, 37 (1) 15- |

| | | | |
|---|---|---|---|
| | | | 21. |
| **15.** | **Beynəlxalq sosial siyasət** | Beynəlxalq sosial siyasətin məqsədi və yaranma səbəbləri; Beynəlxalq sosial siyasətin yaranmasında mühüm amil: "qloballaşma"; Beynəlxalq sosial siyasətin formalaşmasında rol oynayan universal təşkilatlar | 1. Doç.Dr. Seda Tekeli, Prof.Dr. Şenay Gökbayrak, Prof.Dr. Mesut Gülmez, Prof.Dr. Seyhan Erdoğdu "Uluslararası Sosyal Politika" Anadolu Üniversitesi, Açiköğretim Fakültesi, səh: 3-5, 147-150<br>2. Doç. Dr. Faruk Taşci "Uluslararası sosyal politika" Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Çalişma Ekonomisi Ve Endüstri Ilişkileri Lisans Programi, səh: 7-27, 34-80, 147-157, 182-217<br>3. Prof. Dr. Ömer Zühtü Altan "Sosyal Politika" (Ders notu), Anadolu Üniversiteti, Açıköğretim fakültesi, Eskişehir, Haziran 2007, səh: 85-98.<br>4. Doç.Dr. Eda Purutçuoğlu, Uzman Shu Ecren Aydin "Dünyada Sosyal Hizmet Uygulamaları" Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi səh: 114-124 |
| **YEKUN İMTAHAN** | | | |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət

limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə*)

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;

s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bu fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların bu fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada bu fənn üzrə yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

"Sosial siyasət" fənni üzrə təhsil alan tələbələrə yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat səviyyəsi üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bu fənnin bütün mövzuları üzrə tərtib edilən yazılı imtahan sualları əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

"Sosial siyasət" fənni üzrə təhsil alan tələbələrə yazılı üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı bu fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənnin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

**İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ**

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

*Beləliklə, Fənn üzrə kredit qazanmaq üçün tələb olunan 100 balın ayrılması*

- *50 Bal – Yekun imtahanından əvvəl qazanılan*
- *30 Bal – Aralıq imtahanı*
- *20 Bal – Praktik iş (seminar)*

*Dərsdə Davamiyyət-75% Davam Məcburidir*

*50 bal – Yekun imtahanda qazanılmışdır.*

**TƏCRÜBƏ**

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

**TƏRTİB ETDİ:**  **Baş müəl. KÖÇƏRLİ YALÇIN ƏNVƏR o.**